# Minnətdarlıq

Rayon ağsaqqallar Şurası növbəti xeyirxah tədbir keçirmişdir. Şuranın bir qrup üzvü ağsaqqal, hazırda xəstə olan 99 yaşlı şəhər sakini Məhərrəm Şəkərxanova və 83 yaşlı İsbəndiyar Mikayılova baş çəkmişlər.

Məhərrəm Şəkərxanov ömrünün 99-cu baharına qədəm qoyur. 60 ildən çox kənd təsərrüfatı sahəsində çalışıb. Nümunəvi ailə başçısıdır. Səkkiz övlad atası olan Məhərrəm kişi övladlarının hamısını özü kimi zəhmətkeş, vətəninə, xalqına, ailəsinə bağlı bir şəxs kimi yetişdirib, ev-eşik sahibi edib.

Məhərrəm babanın 15 nəvəsi, 7 nəticəsi var. Onlar da babaları, valideynləri kimi insanlara qarşı xeyirxahlıq və qayğı ruhunda tərbiyə olunurlar. Yaşı yüzü haqlamış Məhərrəm baba övladları kimi, nəvə və nəticələri ilə də fəxr edir.

83 yaşlı İsbəndiyar Mikayılov da ömrunu sadə əməyə sərf edib. El-oba arasında hörmət qazanıb.

Məhərrəm kişi də, İsbəndiyar Mikayılov da rayon ağsqqallar şurasının üzvləri Süleyman Mehdiyevin, Nurəddin Şirinovun, Vaqif Əzimovun, Fərman Əzizlinin onlara baş çəkməsindən məmnunluq hissi duyduqlarını bildirdilər. Ağsaqqallar eyni zamanda onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevə, Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərova və rayon rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

**Nazim MUSTAFAYEV,**
**rayon ağsaqqallar**
**şurasının sədri.**

# Çernobıl qəzasının əlillərinə daim qayğı göstərilir

Çernobıl qəzasından 29 il keçir. 1986-cı il aprelin 26-da Çernobıl AES-in dördüncü blokunda texniki və texnoloji baxımdan baş verən qəza Avropanı və dünyanı sarsıtdı. Böyük bir ərazi xarabazara çevrildi, yüz minlərlə adam radioaktiv şüalanmaya məruz qaldı, çarəsiz xəstəliyə, tədrici ölümə məhkum oldu. Çernobıl AES-də baş verən fəlakətlərin nəticələrinin aradan qaldırılmasında Azərbaycanın əsasən gənclərdən ibarət 7 min nəfərdən çox vətəndaşı iştirak etmiş, həyatlarını riskə ataraq qəza bölgəsinə yollanmışdılar. O dövrdə Sovet İttifaqına rəhbərlik edən Mixail Qorbaçov faciənin əsas səbəbini gizlətmiş, gənclər və yeniyetmələr fəlakət zonasına aparılmış və heç bir müdafiə tədbiri görülməmişdir. Radiaktiv şüalanma haqqında adi təsəvvürə və biliyə belə malik olmayan fəlakət zonasına göndərilən neçə-neçə həmyerlimiz dünyasını dəyişdi, yüzlərlə gənc azərbaycanlı ağır dərəcəli şualanmaya məruz qalaraq ömürlük əlil oldu. Onlardan indiyədək 2 min nəfərdən çoxu həlak olmuş, uşaqları əlil doğulmuş yüzlərlə gənc ailə başsız qalmışdır. Həmin dövrdə ulu öndər Heydər Əliyev siyasi Büronun üzvü olan yeganə rəsmi şəxs olub ki, bu faciənin gizlədilməsinə qarşı çıxıb, onun barəsində xalqa doğru-dürüst məlumat verməyi tələb edib. Düzdür, ulu öndər buna nail oldu. Lakin M. Qorbaçov Azərbaycanın böyük oğlunu ölkə rəhbərliyindən kənarlaşdırmaq üçün ondan istifadə etdi.

Lakin bunlar xalqımızın böyük oğlunu sarsıtmadı, çünki gerildə onu sevən və arxasında duran qədir bilən xalqı var idi. Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə gələndən sonra da çernobılçılara diqqət və qayğısını əsirgəmədi. 1993-cü ilin dekabrında Milli Məclisdə «Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında» Qanun qəbul edildi. Bununla ulu öndər bu kateqoriyadan olan insanlara olan diqqət və qayğısını bir daha nümayiş etdirdi. Respublika Prezidenti Cənab İlham Əliyevin də Çernobıl əillərinə qayğısı göz qabağındadır. Dövlət başçısının imzaladığı «Azərbaycan dövlətinin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olanlara, 1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olanlara, Çernobıl qəzasının aradan qaldırılmasına cəlb edilmiş, həmin qəza nəticəsində əlil olmuş hərbi qulluqçulara və şəhid ailəsi üzvlərinə verilən müavinətlərin artırılması haqqında» Fərmana əsasən göstərilən kateqoriyadan olan şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə güzəştlər əvəzinə hər ay müəyyən edilmiş məbləğdə pul verilir. Bir sıra sərəncamlara uyğun olaraq, müvafiq icra orqanları tərəfindən həyata keçirilən tədbirlər Çernobıl əlillərinin sosial rifahının yaxşılaşdırılmasında mühüm rol oynamışdır. Elə bu səbəbdən 2004-cü ildə «Beynəlxalq Çernobıl İttifaqı»nın Koordinasiya Şurasının iclasında Azərbaycanda Çernobılçıların sosial müdafiəsi istiqamətində atılmış addımlar, qəbul edilmiş qanunlar və ümummilli liderimiz Heydər Əliyevin, eləcə də dövlət rəhbəri tərəfindən imzalanmış qanunvericilik aktları ətraflı müzakirə edildikdən sonra cənab İlham Əliyev «Beynəlxalq Çernobıl İttifaqı»nın fəxri üzvü seçilmişdir. Ölkə başçısının imzaladığı sərəncamlara uyğun olaraq Qəbələ Rayon İcra hakimiyyəti hər il Çernobıl qəzasına həsr edilmiş tədbir keçirir. Çernobıl faciəsinin ildönümü münasibətilə qəzanın əlilləri ilə görüş keçirir, onların həlli vacib problemlərini həll edilir.

**Aslan CƏLİLOV.**

## "Vətənin Müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi

Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə 15 aprel 2015-ci il tarixdə Qəbələ şəhər 3 saylı tam orta məktəbdə "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi keçirilmişdir.



Yarışın keçirilməsində məqsəd yeniyetmə və gəncləri vətənin müdafiəsinə mənəvi və fiziki cəhətdən hazırlamaq, gənclərdə vətənə məhəbbət və vətənpərvərlik hissini artırmaq, çağırış və çağırış yaşına qədərki gənclərin hərbi hazırlığının gücləndirilməsi, idmançılarda yarış təcrübəsini və ustalığı artırmaqdan ibarətdir.

Tədbirin açılış mərasimində Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov komandaları salamlayaraq Respublikada idmana göstərilən dövlət qayğısından danışmış, yarışın məqsəd və vəzifələri barədə məlumat verərək idmançılara nailiyyətlər arzulamışdır.

Beynəlxalq Poliatlon çoxnövçülüyü Assosiasiyasının qaydalarına əsasən 100 metr məsafəyə qaçış, turnikdə dartınma və qumbara atma üzrə keçirilən birincilikdə rayonun tam orta məktəblərindən 30-dək komanda iştirak etmişdir.

Yarışın yekun nəticəsinə əsasən Qəbələ şəhər 3 saylı tam orta məktəbin komandası I, Tüntül kənd tam orta məktəbin komandası II və Bayramkoxalı kənd tam orta məktəbin komandası III yeri tutmuşlar. Qalib komandalara gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir. Birinci yeri tutmuş komanda Respublika çempionatının zona mərhələsində iştirak etməyə vəsiqə qazanmışdır.

**Elçin OSMANOV,**
**Gənclər və İdman idarəsinin aparıcı məsləhətçisi.**
**Foto S. Umuyevindir.**

# Yol təmir edildi

Tikanlı kəndini və Bum qəsəbəsini birləşdirən avtomobil yolunun uzunluğu 7 kilometr, eni 6 metrdir. Həmin yoldan qonşu Uludaş, Yemişanlı, Mıxlıqovaq, Solquca və Dandıq kəndlərinin əhalisi də istifadə edir. Yol uzun illər baxımsızlıq ucbatından bərbad vəziyyətdə idi. Yol təmir olunmadığına görə adı çəkilən kəndlərin əhalisinin haqlı narazılığına səbəb olmuşdur. Lakin bu yaxınlarda Tikanlı bələdiyyəsi və kənd inzibati ərazi nümayəndəsi Azər Rəfiyev əhalinin narazılığını nəzərə alaraq yolun təmirinə təşəbbüs göstərmiş və işin gedişinə gündəlik nəzarət etmişlər. Yolun böyük hissəsinə çınqıl döşənmiş, avtoqreyderlə hamarlanaraq qaydaya salınmışdır. İndi bu yoldan həm sürücülər, həm də sərnişinlər rahat istifadə edirlər. Yolun təmirində sürücülərdən İdris Həşimovun, İkram Rəfiyevin, Qeysəddin Məmmədşərifovun əməyi xüsusilə qeyd edilməlidir. Həmin sürücülər yükü özüboşaldan maşınlarla gündəlik çınqıl daşınması normasını artıqlaması ilə yerinə yetirmişdir. Bundan əlavə onlar Tikanlı və Abrıx kəndləri arasındakı 400 metr uzunluğundakı yola da daşınmasını təmin etmişlər. Həm Tikanlı kəndinin əsas yolu və həm də Abrıx kəndinə gedən yol avtoqreyderlərlə hamarlanmışdır.

Bir məsələni də qeyd etmək lazımdır ki, Tikanlı çayı üzərində avtonəqliyyatın rahat hərəkəti üçün çox su tutumuna malik olan beton turbalardan körpü quraşdırılmışdır. Aldığımız bilgiyə görə həmin çay üzərində yaxın gələcəkdə müasir tələblərə uyğun möhtəşəm körpü quraşdırılacağı nəzərdə tutulub.

**A. CƏLALOĞLU.**